Sevda Bəxtiyar

# OXUYAQ ÖYRƏNƏK BİLƏK

4-7 yaşlı uşaqlar üçün məktəbəqədər tədris vəsaiti







Yonca

**Sevda Bəxtiyar. Oxuyaq, öyrənək, bilək**

4-7 yaşlı uşaqlar üçün ensiklopedik ədəbiyyat: 003

Bakı, "Yonca", 2024, 96 səh.
Ölçü: 205x290 mm
Cild: yumşaq
Çapa imzalandı: 14.07.2023

| | |
|---|---|
| Redaktor: | Əyyub Qiyas |
| Dizayner: | Günay Seyidli |
| Qapaq dizaynı: | Rafael Qasım |
| Texniki redaktor: | Gülüstan Bağırova |
| Korrektor: | Ləman Nur |

Yonca

ISBN 978-9952-38-717-9

© Sevda Bəxtiyar, 2024
© "Yonca", 2024
© "Yonca" "Qanun" nəşriyyatının əmtəə nişanıdır

Uşaq ədəbiyyatı ilə bağlı bütün təklif və iradlarınızı bu ünvana yazın: **yoncakitab@gmail.com**
Kitabda verilən imzasız şeirlər müəllifə aiddir



# OXUYAQ
# ÖYRƏNƏK
# BİLƏK






MƏKTƏB
Oxuyaq
Öyrənək
Bilək

# ÖN SÖZ

Bizi əhatə edən dünya böyük və rəngarəngdir. Bəs məktəbəqədər yaşlı uşağa bu dünyanı necə anlatmaq, onun dünya ilə bağlı təsəvvürlərini necə inkişaf etdirmək, həyatı yaşına uyğun şəkildə uşağa necə izah etmək olar? Bu suallar valideynləri və pedaqoqları çox düşündürür. Təqdim etdiyimiz bu kitab uşaqların ətraf aləmlə tanışlığına böyük imkanlar yaradacaq, onları maraqlı və əyləncəli məşğələlərə cəlb edəcək, uşaqlarda onları əhatə edən əşyalar, təbiət hadisələri ilə bağlı ilkin təsəvvürlər oyadacaq.

Kitab sayəsində heyvanlar aləmi, bitkilər, təbiət hadisələri ilə onları tanış edə biləcək, ilk coğrafi bilikləri öyrədəcək, zaman, məkan anlayışlarını izah edəcək, əşyaları təyinatına görə qruplara ayırmalarına imkan yaradacaqsınız. Kitabda yer alan canlı şəkillər və uşaq dünyasına nüfuz edən maraqlı illüstrasiyalar kitabı asanlıqla qavramağına yol açacaq.

Kitab üzrə uşaqlarla fərdi və qrup şəklində məşğul olmaq mümkündür. Məşğələlərdən əvvəl uşaqlarda müsbət emosional ovqat yaratmağa çalışın. Əgər uşaq məşğələdən imtina edirsə, təkid etməyin, məşğələni uşaq üçün daha münasib vaxta keçirin. Məşğələ əsnasında uşaqlarda yaranan "niyə?" suallarını mümkün qədər cavabsız saxlamayın.

Əminəm ki, kitab ətraf aləmlə tanışlıqda ilkin məlumat bazasının formalaşmasına ciddi təsir edəcək, böyüklərin isə öz sevimli övladları, yaxınları, kiçik qardaş və bacıları ilə unudulmaz anlar yaşamağına şərait yaradacaq.

Nəzərə alın ki, bu kitabı tərtib edərkən dünyanın ən peşəkar uşaq psixoloq və pedaqoqlarının təcrübələrindən yararlanmışıq.

Uğurlu məşğələlər arzusu ilə,

*Sevda Bəxtiyar*